# Qələbənin əsasında qətiyyətli siyasət, təcrübəli idarəetmə bacarığı dayanırdı





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Aİİ-nin rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində qələbəmizi bizə qazandıran müzəffər ordumuzun əsgər və zabitləri qarşısında baş əyir, şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ölkəmizin igid oğullarının Ali Baş Komandanın başçılığı ilə qəhrəmancasına döyüşərək öz qanları bahasına bu qələbəni bizə qazandırdığını vurğulayan rektor qeyd edib ki, Zəfərimizi təmin edən əsas amillərdən biri xalqımızın cənab Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan xalqı tarixində çox uğurlara imza atıb: "44 günlük Vətən müharibəsinin nəticəsində qazanılan möhtəşəm Zəfərə qədər gələn yola nəzər salsaq, Ulu Öndər Heydər Əliyevin dövlət, ordu quruculuğu istiqamətində apardığı siyasətin və məhz bu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən çox böyük uğurla, dəqiqliklə davam etdirilməsinin nəticəsini görərik".

Komitə sədri vurğulayıb ki, 30 ildən sonra 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin əsasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin milli maraqları ifadə edən qətiyyətli siyasəti, yüksək şəxsi keyfiyyətləri və təcrübəli idarəetmə bacarığı dayanırdı.

Daha sonra Vətən müharibəsi iştirakçısı baş gizir, kəşfiyyat qrup komandiri İlqar Cahangirov, qazilər Mobil Əhmədzadə və Ayaz Allahverdiyev çıxış edərək Zəfərdən qürur hissi duyduqlarını, Ali Baş Komandan - xalq - ordu birliyindən ilhamlanaraq yüksək mübarizlik, vətənpərvərlik ruhu ilə döyüşlərə qatıldıqlarını qeyd ediblər.

Tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, 44 günlük Vətən müharibəsi şəhidi Həmidağa Hüseynzadə haqqında "Bayraq oldum, enmədim!" adlı film təqdim olunub.

Sonda şəhidin atası Bağı Hüseynzadə çıxış edərək oğlunun Vətən uğrunda şəhadətə ucalmasından qürur hissi duyduğunu bildirib. Şəhid atası gənclərimizi Vətənin hər zaman keşiyində durmağa, vətənpərvər olmağa çağırıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 5 noyabr.- S.7.